

# Turizmini inkişafı üçün

**Son vaxtlar respublikamızın bütün bölgələri kimi Gölgöl rayonunda da quruculuq, təmir-bərpa işləri geniş vüsət almışdır. Bütün bunlar bir tərəfdən şəhər və kəndlərinizin abadlaşdırılmasına, əhalinin rahat yaşayışına təsir göstərirsə, digər tərəfdən yerlərə turist axınının gücləndirilməsinə xidmət edir.**

Söhbət zamanı Göygöl Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Şərqiyyə Verdiyeva bununla bağlı fikirlərini bizimlə belə bölüşdü:

- Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2007-ci il tarixli "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncamına əsasən rayon rəhbərliyinin diqqət və qayğısı nəticəsində Haçaqaya kənd kitabxana binası tikilərək istifadəyə verilmiş, Kərəmli, Nadil, Sarısu kənd kitabxana binaları əsaslı, Qırıxlı kənd kitabxana binası isə cari təmir edilmişdir. MKS-ə 5 ədəd kompyuter dəsti, 2721 nüsxə yeni ədəbiyyat və kitabxana texnikası alınmışdır. Kərəmli, Sarısu, Nadil, Gəncə kənd klubları, Pənahlılar kənd mədəniyyət evi və Heydər Əliyev adına mədəniyyət və istirahət parkı əsaslı təmir edilmişdir. Ərazidə 2050 ədəd ağac və bəzək kolları əkilmişdir. Hazırda rayon mədəniyyət evində əsaslı təmir işləri aparılır. Bu müəssisəl üçün 180 min manat dəyərində inventar alınmışdır.

Mədəni irsin qorunması ilə əlaqədar XIX əsrə aid "Lüteran" kilsəsi təmir və restavrasiya olunaraq tarix-diyarşünaslıq muzeyinin tabeliyinə verilmişdir. Şəhərdə XIX əsrə aid bütün memarlıq abidələri Mədəniyyət və Turizm Nazirliyinin nümayəndəsi ilə birgə siyahıya alınmışdır. Rayon ərazisində mövcud olan, lakin qeydiyyata alınmamış abidələrlə birgə dövlət mühafizəsinə götürülən daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə yeni siyahının layihəsinə daxil edilmək üçün Mədəniyyət və Turizm Nazirliyinə təqdim edilmişdir. Nazirlik tərəfindən Göygöl şəhərinin tarixi hissəsinin qoruq elan edilməsi ilə bağlı təklif Nazirlər Kabinetinə təqdim olunmuşdur.

Təbiətin bəxş etdiyi füsunkar gözəlliklər: sıx meşələr, sərin bulaqlar və çayların mövcudluğu rayonumuzun Respublikada müəyyən olunmuş 3 turist marşurutundan 2-nə - Alman məskənləri və Şərab yolu marşurutlarına məxsusluğu təmin etmişdir.

Turizmin inkişaf etdirilməsi üçün başlıca şərtlərdən biri olan cəlbedici infrastrukturun yaradılması işi rayonda uğurla həyata keçirilir. Göygöl - Aşıqlı - Hacıkənd - Göygöl, Göygöl - Topalhəsənli - Zurnabad- Şəhriyar, Göygöl - Köşkü - Üçbulaq, Göygöl - Quşqara - Balçılı və Göygöl şəhəri kimi 5 turizm marşurutu müəyyən olunmuşdur.

Rayonun təbiəti və turist marşurutları ilə əlaqədar məlumatlar Mədəniyyət və Turizm Nazirliyinin veb saytına daxil edilmişdir. Hər bir turist internet vasitəsi ilə Göygöl rayonu haqqında lazımi məlumatları asanlıqla öyrənir ki, bu da rayonumuza turist axınına səbəb olur və rayonumuzun təbiəti ilə tanış olan investorların bölgəyə marağı günü gündən artır.

Bütün bunlarla yanaşı hələ də işimizə mane olan müəyyən problemlər mövcuddur. Mədəniyyət müəssisələrinin bir çoxunun təmirə ehtiyacı vardır. Mədəni irsimiz olan tarix və mədəniyyət abidələrinin əksəriyyəti bərpa edilməlidir. Rayonumuzda turizm-informasiya mərkəzinin yaradılması çox vacibdir. Bu gün turistlərin rayonumuzda qalması və istirahəti üçün standartlara uyğun mehmanxana binasına ciddi ehtiyac vardır...

**B.ZAYRALQIZI**

Göygöl